2017

# Elektron imza Tokenindən istifadə qaydaları

İSTİFADƏÇİ TƏLİMATI

NRYTN MHM | Azərbaycan, Bakı, Dilarə Əliyeva küç. 185, AZ 1010

# Elektron imza Tokeninin kompüterə tanıdılması və lazım olan proqram təminatının quraşdırılması

1. USB Tokeni komputerə qoşun. Token komputerə qoşulduqdan sonra üzərində işıq yanmalıdır.
2. Token kompüterə qoşulduqdan sonra “My computer” (Мой компьютер) pəncərəsində avtomatik olaraq görünəcək.




3. “es2003_160804” yazısının üzərində iki dəfə klik edərək proqramı işə salın.
4. Açılmış pəncərədə proqramın qurulması zamanı istifadə olunacaq dili seçib “OK” düyməsini sıxaraq növbəti pəncərəyə keçid alın.



5. Giriş pəncərəsində “Next” düyməsini sıxın.




6. Açılmış pəncərədə proqramın kompüterinizdə yüklənəcəyi ünvanı dəyişmək mümkündür. Yükləməni davam etmək üçün “Next” düyməsini sıxın.



7. Opsiyalar pəncərəsində heç bir şey dəyişmədən “Install” düyməsini sıxın.




8. Yükləmənin bitməsini gözləyin.



9. Yükləmə bitdikdən sonra "Finish" düyməsini sıxın.




## Sertifikatların kompüterdə qeydiyyata alınması

1. Proqram kompüterə yükləndikdən sonra "Start" (Пуск) menyusunu açıb, proqramlar siyahısından "EnterSafe" qovluğunda olan "ePass2003 Token Manager" proqramını işə salırıq.




2. Proqram açıldıqdan sonra, əgər token kompüterə düzgün qoşulubsa, Tokenlər siyahısında qoşulu olan sertifikatın seriya nömrəsini görmək mümkündür.




3. Sertifikatları qeydiyyata salmaq üçün “Login” düyməsini sıxın.



4. Açılmış pəncərədə PİN kodu daxil edərək "OK" düyməsini sıxırıq.




5. PİN kod düzgün yığılmadığı halda xəbərdarlıq ediləcəkdir. PİN kod 9 dəfə yalnış yığdıqdan sonra sertifikatlar bloka düşəcəkdir.



6. PİN kod düzgün yığıldığı halda sertifikatlar haqqında məlumatlar görüləcəkdir.




## PİN kodun dəyişdirilməsi

1. PİN kodu dəyişdirmək üçün “ePass2003 Token Manager” proqramını işə salaraq “Login” edirik.



2. PİN kodu dəyişdirmək üçün “Change User PİN” düyməsini sıxırıq.




3. Açılmış pəncərədə “Old user PIN” hissəsində, köhnə (hal hazırda login üçün istifadə etdiyiniz) PIN kodu daxil edirik. “New user PIN” hissəsində yeni PIN kodu daxil edirik. Yeni pin kod 8 simvoldan az olmamalıdır. “Confirm” hissəsində yeni PİN kodu təkrar olaraq daxil edirik və “OK” düyməsini sıxaraq PİN kodun dəyişdirilməsini təsdiq edirik.



4. Əgər daxil edilmiş köhnə PİN kod düzgündürsə, PİN kodun müvəffəqiyyətlə diyişdirilməsi barədə məlumat veriləvək. Məlumat pəncərəsini bağlamaq üçün “OK” düyməsini sıxırıq.




5. Əgər daxil edilmiş köhnə PİN kod yalnışdırsa, xətanın olduğu barədə xəbərdarlıq olunacaq. PİN kod 9 dəfə yalnış yığdıqdan sonra sertifikatlar bloka salınacaq.



## Tokenin blokdan çıxarılması

Əgər PİN kod 9 dəfə yalnış daxil edilərsə sertifikatlar avtomatik olaraq bloka salınır. Sertifikatları blokdan çıxarmaq üçün PUK kod tələb olunur. PUK kod bilirsinizsə, 157 zəng mərkəzi ilə əlaqə saxlayaraq sertifikatları blokdan çıxarmaq mümkündür.

## PUK kodun öyrənilməsi

Əgər PUK kod itirilb və ya unudulubsa, onun öyrənilməsi üçün 157 zəng mərkəsi ilə əraqə saxlamaq lazımdır. Tokenin həqiqətən sizə məxsus olduğunu təsdiq etmək və zəng edəni identikləşdirmək üçün elektron imza sifariş etdiyiniz zaman seçdiyiniz gizli suala cavabınız tələb olunacaq. Əgər gizli sualın cavabı unudulubsa bərpası tələb olunan tokenin sahibi şəxsiyyət vəsiqəsi ilə Azərbaycan Respublikası, Bakı şəhəri, Nizami rayonu, Dilarə Əliyeva 185 ünvanında yerləşən Məlumat Hesablama Mərkəzinə yaxınlaşması tələb olunur.

